# Onlar 20 nəfər idilər...



*Onlar 20 nəfər idilər – Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun kino və dram aktyorluğu fakültəsinin 20 məzunu... Azərbaycanın görkəmli teatr və kino rejissoru, aktyoru-pedaqoqu Adil İsgəndərovun kursunu bitirən kimi hamısı təyinatla Lənkərana teatr açmağa, daha dəqiq desək, bu cənub şəhərində vaxtilə fəaliyyət göstərmiş Dövlət Dram Teatrının işini bərpa etməyə göndərilmişdilər. İndi həmin vaxtdan nə az, nə çox – düz 42 il keçir. Lənkərana teatr açmağa gələnlərdən cəmi 2 nəfər – iki sədaqətli ömür-gün yoldaşı, Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının aparıcı aktyorları – respublikanın Xalq artisti, Prezident mükafatçısı Böyükxanım Əliyeva və Əməkdar artist, "Tərəqqi" medalı ilə təltif olunmuş Təvəkkül Əliyev burada işləməkdə davam edir. Bölgədən jurnalist Ağaddin Babayev sənətkarlarla görüşüb, söhbətləşib.*

**– 1973-cü il dekabr ayının 6-sını, yəni professional sənətə qədəm basdığınız günü necə xatırlayırsınız?**

**Böyükxanım Əliyeva:** – Həmin gün indiki kimi yadımdadır. Xalq yazıçısı Mirzə İbrahimovun "Yaxşı adam" komediyasını hazırlamışdıq. İlk tamaşaya baxmaq üçün Lənkərana Bakıdan, respublikanın ayrı-ayrı şəhər və rayonlarından çoxlu qonaq gəlmişdi. Bu tamaşada mən üç uşaq anası olan Sənəm xala rolunda çıxış edirdim. Tamaşadan öncə saçlarımı ağartdım, nisbətən qoca paltarı geyindim, üzümə, sifətimə qırışlar çəkdim və özümü qoca qadın qiyafəsinə saldım. Yeri gəlmişkən deyim ki, indi qrimsiz-filansız həmin rola çıxa bilərəm. Çünki artıq saçlarım ağarıb, üzüm qırışlanıb; hər halda, bunu istəmirdim, amma oldu. Zaman öz izini qoyur. Nə isə, qoy ardını danışım. Həmin axşam tamaşa zamanı mən səhnəyə zaldan çıxmalı idim. Zalın qapısını açıb hay-küy sala-sala, qızımı axtara-axtara səhnəyə qalxacaqdım. Təsəvvür edin ki, elə bil əl-qolumu bağlamışdılar. Həyəcandan ayaqlarım yer tutmurdu. Kənardan isə mənə deyirdilər: "Tez ol, gir içəri, sənin yerindir!". Foyedə dayanmışdım, qapını açmışdılar, amma heç cür içəri girməyə cürət edə bilmirdim. Axır ki, tamaşanın quruluşçu rejissoru rəhmətlik Əşrəf Quliyev arxadan məni itələyərək zala saldı. Dayanıb bir anlığa ora-bura göz gəzdirdim və birdən başladım çığırmağa: "Ay kişi, ay kişi, hardasan, hardasan?". Bunu ki dedim, ardı gəldi... Tamaşa gözlənildiyindən də yaxşı alındı. Sürəkli alqışlar binanı başına götürmüşdü. Tamaşa bitəndən sonra elə ki biz səhnəyə çıxıb tamaşaçılara təzim etdik, onda rahat nəfəs aldım. Səhnə təzə-tər çiçəklərə bürünmüşdü. Hamı yaxınlaşıb bizi təbrik etməyə can atırdı.

**Təvəkkül Əliyev:** – Həmin gün mənim də yaddaşımda əbədi iz salıb. Biz İncəsənət İnstitutunun məzunları ilk dəfə professional səhnədə tamaşaçılar qarşısında sənət imtahanına çıxacaqdıq. Zalda iynə atsaydın, yerə düşməzdi. Tamaşaçılar arasında tanınmış sənətçilər, ziyalılar, şair və yazıçılar, o cümlədən əsərin müəllifi, rəhmətlik Mirzə İbrahimovla ailə üzvləri də vardı. Teatrın direktoru və baş rejissoru Məbud İsmayılzadə mənə tapşırdı ki, pərdəni qaldırıb tamaşaçıları salamlayım. Beləliklə, Lənkəran teatrının pərdəsini ilk dəfə açmaq səadəti mənə qismət oldu. Lənkəran Dövlət Dram Teatrının fəaliyyətə başlaması münasibətilə tamaşaçıları təbrik etdim. Ondan sonrası yadımda deyil. Başladım obrazı oynamağa.

> **Tamaşa bitər-bitməz sürəkli alqış sədaları ucaldı. Daha sonra rəhmətlik Mirzə İbrahimov özü də səhnəyə qalxıb hər birimizin əlini sıxdı, hamımızı təbrik etdi. Xalq yazıçısının bizə ünvanladığı ürək sözləri həmişəlik yaddaşımda qalıb: "Mən sizə qoşulub sevinirəm. Ona görə yox ki əsərim tamaşaya qoyulub. Ona görə sevinirəm ki, ən yaxşı əsərlərimizin taleyini Lənkəran teatrının gənc kollektivinə etibar etmək olar. Sevinirəm ki, dünya klassiklərinin, habelə müasirlərin əsərləri sizə arxalanıb Lənkəran teatrına ayaq açacaq. İlk təəssüratdan belə qənaətə gəlmək olar ki, artıq yazıçı fikrini bir aktyor kimi duymağı bacarırsınız. Arzu edirəm ki, titrək addımlarınız bu səhnədə daha da mətinləşsin".**

**– Ötən 42 il ərzində teatrınızda çox hadisələr baş verib. Sizinlə birgə Lənkərana işləməyə gəlmiş tələbə yoldaşınız, Əməkdar artist Elşad Zeynalov haqq dünyasına qovuşub, digərləri paytaxta üz tutublar. Bəs sizi Lənkəranda saxlayan nə oldu?**

**B.Ə.** – Bakıda qalmaq fikrim olsaydı, bunu elə institutu bitirən vaxt, yəni 1973-cü ildə edə bilərdim. Məni müəllim kimi institutun səhnə danışığı kafedrasında saxlamaq istəyirdilər. Amma 4 il bir yerdə oxuduğum tələbə dostlarımdan ayrı düşmək istəmədim. Həm də tələbə partasından qalxıb birdən-birə müəllim qismində auditoriyaya girmək məsuliyyətindən ehtiyat etdim. Açığını deyim ki, seçdiyim sənəti çox sevirdim, neçə illərdən bəri aktrisa kimi tamaşaçıların qarşısına çıxmaq arzusu ilə yaşayırdım. Teatrımızın ilk direktoru rəhmətlik Məbud İsmayılzadə çox təkid etdi, atamla danışıb Lənkərana işləməyə gəlməyimə onu da razı saldı. Dedi ki, Böyükxanım qoy burada bir-iki rol oynasın, sonra istədiyi vaxt Bakıya instituta qayıda bilər. Amma elə ki Lənkərana gəldim, teatrda ilk rolum olan Sənəm xalanı oynadım, elə bil məni caduladılar, daha bir də Bakının adını tutmadım. Lənkərana mənimlə bir yerdə gələn tələbə yoldaşlarımdan dünyasını dəyişənlər oldu (Allah hamısına rəhmət eləsin), qalanları isə kimi bir il, kimi beş il, kimi yeddi ildən sonra Bakıya qayıtdılar. Ancaq Təvəkküllə ikimiz burada qaldıq.




Bolqar rejissoru Hristo Stoiçev, Təvəkkül Əliyev və Böyükxanım Əliyeva



Aldo Nikolainin "Dəmir sinif" tamaşası



Jan Batist Molyerin "Mizantrop" tamaşası



Onu da bildirim ki, Lənkəran teatrında işlədiyim bu illər ərzində həmişə qarşımda geniş üfüqlər açılıb. Arzusunda olduğum bütün rolları burada ifa etmişəm. Bir haşiyə çıxım. V.Şekspirin "Qış nağılı"ndakı Germionanı çoxdan idi oynamaq istəyirdim. Elə bu xahişlə də Məbud müəllimə yaxınlaşdım. Məhz mənim xahişimdən sonra həmin əsər teatrın repertuarına salındı və çox böyük müvəffəqiyyətlə Germiona rolunun öhdəsindən gəldim. Bu günün özündə belə həmin rolun ab-havası xəyallarımda dolaşır. Ümumiyyətlə deyim ki, ötən əsrin 70–80-ci illərində bizim teatrda oynanılan əsərlər sədaqətli tamaşaçılarımıza hər dəfə xoş ovqat, əsl bayram əhvali-ruhiyyəsi bəxş edərdi. Hər kəndin, hər sovxozun öz teatr günü olardı. Bütün tamaşalarımız anşlaqla keçərdi. Bəzi texniki qüsurları olsa da, mən məhz bu səhnəyə öyrəşmişəm. Bütün uğurlarımı burada əldə etmişəm. Doğrudur, ayrı-ayrı vaxtlarda paytaxt teatrlarından işə dəvət olunsam da, buna razılıq verməmişəm. Demişəm və yenə təkrar edirəm:"Özgə süfrəsinin şiri olmaqdansa, öz süfrənin pişiyi olmaq minqat yaxşıdır". Bir də ki hər gün salamlaşıb hal-əhval tutduğum doğma, əziz tamaşaçılarımızdan axı necə ayrı düşə bilərəm?

**T.Ə.** – 42 il, əslində, az müddət deyil, bir igidin ömrünə bərabərdir. Allaha şükür ki, zaman payımı hədər yerə xərcləməmişəm. Əsl aktyor həyatını məhz həmin illər ərzində yaşamışam. Məni Lənkəranda saxlayan tamaşaçı məhəbbəti və qayğısı olub. Bəzən Böyükxanımla bir neçə günlüyə Bakıya getmişik, amma Lənkəran üçün, tələbkar tamaşaçılarımız üçün darıxdığımızdan vaxtından əvvəl geri qayıtmışıq. Qürur hissi keçirirəm ki, məhz Lənkəran teatrının səhnəsində öz sözünü demiş, püxtələşmiş aktyor səviyyəsinə ucala bilmişəm. İndinin özündə belə yolda, küçədə tamaşaçılarla qarşılaşarkən onlar bizə oynadığımız rollarla müraciət edirlər. Belə tamaşaçını necə sevməyəsən? Belə şəhəri, teatrı necə tərk edəsən?

**– Təvəkkül müəllim, həyat yoldaşınız Böyükxanım Əliyeva xalq artistidir, amma siz hələ də əməkdar artistsiniz. Buna necə baxırsınız?**

**T.Ə.** – Bilirsiniz, postsovet dövrünün bəzi naqis xüsusiyyətləri bu gün də öz diktəsini etməkdədir. O vaxt belə bir qayda vardı: ərlə arvad, yaxud da ata ilə uşaqları bir idarədə, bir müəssisədə işləyə bilməzdilər. "Qohumbazlıq" deyilən bir məfhum yaranmışdı. Bizim işimiz də buna oxşayır. Söz düşəndə deyirlər ki, siz ər-arvadsınız, ikinizə də eyni bərabərlikdə yerimək olmaz. Əslində, belə şeylər gərək yaradıcı insanlara şamil edilməsin. Mənimlə Böyükxanımın bir-birindən fərqli dəstxətimiz var. Amma bunun fərqinə varmırlar. Belə çıxır ki, Böyükxanım xalq artisti olduğundan bu şərəfə mən layiq görülə bilmərəm. Əslində, bunun mənim üçün elə bir əhəmiyyəti də yoxdur.

**– Səhnədə sözünü demiş iki tanınmış sənətçinin ailədə dil tapmasında hər hansı çətinlik olubmu?**

**T.Ə.** – Qətiyyətlə deyirəm ki, yox! Biz məşqdə birgə məşğul olduğumuz vaxt nə Böyükxanım mənim işimə müdaxilə edir, nə də mən Böyükxanımın. Amma evdə ikilikdə məşq prosesini müzakirə edir, bir-birimizin, əgər olubsa, nöqsanlarını deməkdən çəkinmirik. Fikrimcə, yaradıcı insanlar belə də etməlidirlər. O vaxt övladlarımız hələ yanımızda yaşayanda bizim söhbətlərimizə çox diqqətlə qulaq asardılar. İndi artıq onların da öz övladları var və bəzən söz düşəndə necə işlədiyimizi yadımıza salırlar.

> **“Xatirimdədir, teatrda Cəfər Cabbarlının “Aydın” tamaşasını hazırlayırdıq. Mən Aydın rolunda, Böyükxanım isə Gültəkin rolunda çıxış edirdi. Məktəbdən sonra qızlarımız gəlib məşqə baxırdılar. Evə qayıdandan sonra bizə nə desələr yaxşıdır: “Siz Allah, belə kasıb rollar oynamayın, nə olar!?” Uşaq ki, uşaq! Nə bilsinlər ki, Aydın və Gültəkin obrazlarını yaratmaq hər aktyora nəsib olmur.**

**B.Ə.** – Qoy mən də bir-iki kəlmə əlavə edim. Uşaqlardan söz düşmüşkən deyim ki, qızım ikinci sinifdə oxuyurdu. Bir dəfə evə qanıqara gəldi. Soruşdum, nə olub? Cavab verdi ki, ana, sinifdə uşaqlar məni artistin qızı çağırırlar, bundan pis oluram. Uşağı sakitləşdirib dedim ki, qızım, niyə pis olursan? Heç bilirsənmi, bizim nə qədər hörmətimiz var?! Onlar uşaqdırlar, hələ qanmırlar. Amma vaxt gələr, sən bizimlə fəxr edərsən. 50 illik yubileyim qeyd ediləndə qızım bu sözlərimi yada saldı. Dedi ki, mən həqiqətən də sizinlə fəxr edirəm! Mənim bir qanadım atam, digər qanadım isə, ana, sənsən!

**– Teatrda çalışdığınız ötən müddətdə həmişə baş qəhrəman obrazlarını yaratmısınız. Bəs bundan sonra oynamaq arzusunda olduğunuz hər hansı bir rol varmı?**

**T.Ə.** – Teatrda hazırlanan tamaşaların əksəriyyətində baş qəhrəman obrazı mənim qismətimə düşüb. İndi ürəyimdə bir arzum var: Kral Liri oynamaq. Bu yaşımda həmin rolu yaratmağa hazıram və təcrübəm də buna imkan verir. Amma təəssüf ki, truppamızın imkanları məhdud olduğundan bu arzumun gerçəkləşməsi hələlik mümkünsüzdür.

**B.Ə.** – Vallah, mənim ürəyimdən hansı rol keçibsə, onu da oynamışam. Amma daha gənc deyiləm, artıq 70 yaşım var. Əgər istedadlı rejissor və yaxşı əsər olsa, yenə də məmnuniyyətlə səhnəyə çıxıb oynayaram. Tərif kimi çıxmasın, buna mənim həm təcrübəm, həm də digər potensial imkanlarım var; məsələn, çoxdan arzusunda olduğum bir rol var: Viktor Hüqonun "Mariya Stüart"ında baş qəhrəmanı oynamaq. Amma təəssüf ki, bu əsəri tamaşaya qoymağa teatrda şərait və truppa yoxdur. Gərək ətraf olsun ki, belə bir tamaşanın və obrazın öhdəsindən gələ biləsən.

**– Təvəkkül müəllim, kinodakı işiniz barədə nə deyə bilərsiniz?**

**T.Ə.** – Hələ lap cavan ikən Böyükxanım dəfələrlə deyərdi ki, Təvəkkül, get kinostudiyaya, səni hökmən çəkərlər. Amma nədənsə bunu etmədim. İndi vəziyyət dəyişib. Artıq Bakıda məni həm də kino artisti kimi tanıyırlar. Tez-tez bədii filmlərə, teleseriallara çəkilməyə dəvət olunuram. İndiyə kimi 15 filmdə müxtəlif səpkili rollarda çəkilmişəm. Kinoda axırıncı işim "Əli və Nino" filmində olub. Burada məşhur Azərbaycan xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin obrazını yaratmışam. Hazırda filmin montaj işləri gedir. Onu da bildirim ki, yaxın vaxtlarda daha bir neçə filmdə çəkiləcəyəm.

**– Hər ikiniz müxtəlif yaradıcılıq prinsiplərinə malik rejissorlarla işləmisiniz. Kimin peşəkarlığından daha çox bəhrələnə bildiniz?**

**T.Ə.** – Mənim bir aktyor kimi yetişməyimdə rejissor Oruc Qurbanovun əməyi əvəzsizdir. Oruc Qurbanov aktyordan istədiyini almağı bacarır. Aktyorların əksəriyyətindən soruşsan ki, oynadığın rolu necə görürsən, onun xarakterini aç göstər, vallah, quruyub qalacaq, cavab verə bilməyəcək. Bu gün aktyorlar səhnədə yalnız müəllifin sözünü çatdırırlar. Amma axı oynadıqları rolun xarakteri də var. Bu daha çox rejissorun aktyorlarla lazımi səviyyədə işləyə bilməməsindən irəli gəlir. Amma Oruc Qurbanov kimi artıq Azərbaycan teatrında öz yeri olan bir rejissorla ünsiyyət, hər dəfə ondan görüb-götürmək adama, sadəcə, ləzzət verir.

**B.Ə.** – Nə gizlədim, elə mənim də bir aktrisa kimi yetişməyimdə Oruc Qurbanovun zəhməti çoxdur. Sizə bir epizod danışım. Bolqarıstandan teatrımıza dəvət olunmuş rejissor Hristo Stoiçev "Mizantrop" tamaşasını hazırlayırdı. Orada həm mənə, həm də Təvəkkülə rol verilmişdi. Əgər rejissor bir vəziyyəti tələb edirdisə, mən əlavə olaraq daha 5-ni yerinə yetirirdim. Biz indi də Hristo ilə internet vasitəsilə əlaqə saxlayırıq və hər dəfə o mənə "Velikaya" deyə müraciət edir. Qısası, aktyorun yetişməsində rejissorun üzərinə böyük məsuliyyət düşür.

**– Təvəkkül müəllim, siz özünüzü həm də rejissor kimi sınamısınız...**

**T.Ə.** – Yox, mən hər şeydən əvvəl aktyoram, həm də peşəkar aktyoram. Ara-sıra teatrda tamaşa hazırlamaq isə təcrübəmdən irəli gələn bir işdir. Rejissor vəzifəsinin məsuliyyəti böyükdür və mən belə bir yükün altına girməyə cürət etmərəm. Ötən onilliklər ərzində çoxlu rejissorla işləmişəm, hərəsinin dəstxətindən müəyyən qədər bəhrələnmişəm. Teatrda quruluş verdiyim əsərlər əsasən nağıl-tamaşalardır.

**– Sizi Lənkəranda hamı tanıyır və sevir. Elə bilirik ki, bu münasibət qarşılıqlıdır...**

**T.Ə.** – Əlbəttə! Başqa cür ola da bilməz! Lənkəran bizə hədsiz doğma bir məkandır. Xoşbəxtliyimizi, səadətimizi məhz burada tapmışıq. Lənkəranda çoxlu ailəvi dostlarımız var. Həmişə, hər şəraitdə bir-birimizin yanındayıq.

**– Bugünkü tamaşaçıların səviyyəsi barədə nə deyərdiniz?**

**T.Ə.** – Bugünkü tamaşaçılarımız əsasən gənclərdən ibarətdir. Onların davranışı, rəftarı şəxsən məni qane edir. Amma burada müəyyən nüanslar da var. Əgər aktyor öz ifasına məsuliyyətlə yanaşırsa, oynadığı obrazı çatdıra bilirsə, onda tamaşaçıların da münasibəti, reaksiyası, emosiyası qarşılıqlı olur. Belədə həm tamaşa uğur qazanır, həm də aktyor sevilir.

**B.Ə.** – Ən tələbkar tamaşaçı uşaqlar və gənclərdir. Əgər onları ələ almağı bacarırsansa, sakit oturub səhnəyə diqqət kəsilirlərsə, deməli, tamaşa uğurlu alınıb və aktyor öz vəzifəsinin öhdəsindən gəlməyi bacarıb.

**– Bu il həm də hər ikinizin yubileyidir. Əlamətdar hadisəni necə qeyd etmək istəyirsiniz?**

**T.Ə.** – Mən hər hansı təmtəraqdan uzaq adamam. Əgər yubileyimlə bağlı nəsə bir tədbir keçiriləcəksə, şübhə yoxdur ki, onun iştirakçıları da bilavasitə mənim tələbkar tamaşaçılarım olacaq.

**B.Ə.** – Vallah, elə mən də Təvəkkül deyəni təkrarlayacaqdım. Amma sözün düzü, yubiley-filan istəmirəm. Əsas umduğum, arzum Prezident təqaüdçüsü olmaqdır. Bu, eyni zamanda teatrın fəaliyyətinə verilən qiymət olar!

**Söhbətləşdi:**

Ağəddin Babayev,
Lənkəran